

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 iyul 2022-ci il №56 (2667) https://mod.gov.az Qiymәti 30 qəpik

## Azərbaycanın media nümayəndələrinə

Hörmətli media nümayəndələri!

Əziz jurnalistlər!

Sizi Azərbaycan milli mətbuatının yaranmasının ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik dövrümüzdə ilk dəfə Azərbaycan jurnalistləri Ermənistanın 30 ilə yaxın davam edən işğalından sonra öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində qeyd edirlər. Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə olacaqdır.

Azərbaycan mətbuatı 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzetinin bəyan etdiyi prinsipləri rəhbər tutaraq böyük inkişaf yolu keçmişdir. XIX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər tariximizin güzgüsü olmuş, insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur.

Kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Son illər həyata keçirilmiş islahatlar media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çeviklik, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşımış, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətdir. Məhz buna görə qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdləri səngimir. Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamışdır. Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın doğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar.

Əminəm ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək.

Bir daha peşə bayramınız münasibətilə sizi təbrik edir, hər birinizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 iyul 2022-ci il.

*Reportaj*

## Tariximizin şanlı səhifəsi - “Dəmir yumruq” əməliyyatı



Tariximizin şanlı səhifəsi olan “Dəmir yumruq” əməliyyatı təkcə rəşadətli ordumuzun apardığı mübarizə deyil, eyni zamanda, Müzəffər Ali Baş Komandanın siyasi və diplomatik mübarizəsi dünya azərbaycanlılarının həmrəyliyinin və birliyinin nümayişi oldu. Nəticədə gecikmiş ədalət bərpa olundu, xeyir şər üzərində qələbə çaldı. Beynəlxalq qurumların illər ərzində edə bilmədiyini Azərbaycan əsgəri cəmi 44 günə etdi, bizlərə Böyük Qələbə sevinci qazandırdı. Bu gün ata-babalardan miras qalan əzəli və əbədi torpaqlarımızda üçrəngli bayrağımız qürurla dalğalanır və o bayraq yurdundan ayrı düşən soydaşlarımızın quruculuq işləri başa çatdıqca öz yurduna Böyük Qayıdışının uzaqda olmadığının işarəsidir.

Yolumuz yenə işğaldan azad olunan tarixi ərazilərimizədir. Avtomobil yolunda genişləndirmə və abadlaşdırma işləri aparılır, ətrafda bir zamanlar mənfur düşmənin bölmələrimizə qarşı qurduğu və qısa vaxt ərzində yerlə-yeksan edilmiş "keçilməz" istehkam qurğularının qalıqlarını görürük. Hər qarış uğrunda şiddətli döyüşlər gedən ərazinin ucu-bucağı görünmür. Həqiqətən də, cəsur oğullarımızın yazdığı tarixin də miqyası ucsuz-bucaqsızdır. Xatirələr yolun başlanğıcı ilə sonu arasında bir körpü olur və nəhayət, Vətən müdafiəçisi oğullarımızın xidmət etdiyi bölməyə çatırıq.

"N" hərbi hissəsində Ermənistan ordusu bölmələri ilə yaxın mövqelərdə xidmət edən əsgərlərimizin yanındayıq. İlk müsahibim gizir Elvin Canəliyevdir. O bildirir ki, döyüşlər başa çatan gündən bu ərazidə düşmən tərəfindən hər hansısa təxribata cəhd edilməyib. Müsahibim qeyd edir ki, Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun qazandığı tarixi qələbə düşməni onsuz da qorxudub və bu gün üzərində gəzdiyimiz torpaqların həqiqi övladları olan əsgərlərimiz Vətənin müdafiəsində məğrur dayanırlar. "Dəmir yumruq" əməliyyatı düşmənə layiqli dərs oldu və onun başını əzdi. Bütün dünya Azərbaycan Ordusunun gücünə şahid oldu.

**(Ardı 2-ci səhifədə)**

## Cari ilin birinci yarısında Müdafiə Nazirliyində mətbuat sahəsində görülən işlər barədə hesabat

2022-ci ilin yanvar ayının 1-dən iyun ayının 30-dək Müdafiə Nazirliyində mətbuat sahəsində görülən işlər barədə yarımillik hesabat hazırlanıb.

Hesabat dövründə Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində (www.mod.gov.az) 461 məlumat Azərbaycan, rus və ingilis dillərində yerləşdirilib.

Eyni zamanda, nazirliyin rəsmi feysbuk səhifəsində 489, instaqramda 648, teleqramda 648 məlumat, tviterdə 547 tvit, yutub kanalında isə 199 video-material paylaşılıb.

Nazirliyin rəsmi internet səhifəsində hərbi vətənpərvərlik və digər mövzularda keçirilən tədbirlərlə bağlı 2279 foto və 199 video material yerləşdirilib.

Bundan başqa, kütləvi informasiya vasitələrindən (KİV) Azərbaycan, rus və ingilis dillərində daxil olan 51 sorğu cavablandırılıb.

Müvafiq dövrdə KİV-dən daxil olan 132 müraciət araşdırılıb və çəkilişlərin təşkil edilməsi üçün zəruri köməklik göstərilib.

Hesabat dövründə geniş ictimaiyyətin məlumatlandırılması və KİV-lə işin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinə, nazirliyin idarə və xidmət, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinə, xüsusilə də azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrə və dövlət sərhədində yerləşən döyüş mövqelərinə ümumilikdə 16 media-tur təşkil olunub.

Media-turlar çərçivəsində jurnalistlər hərbi qulluqçularla görüşüb, onlardan müsahibələr alıb, şəxsi heyətin xidməti, döyüş fəaliyyətinin təşkili, eləcə də sosial-məişət şəraiti və maddi-texniki təminatı ilə tanış olublar.

Hesabat dövründə yerli və xarici mətbuat, eləcə də sosial şəbəkələrdə maraq doğuran 15022 məlumat monitorinq olunaraq təhlil edilib.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanının tələblərinə uyğun olaraq Müdafiə Nazirliyinin pressmd@mod.gov.az və apellyasiya@mod.gov.az elektron poçt ünvanlarına daxil olan 5272 müraciət də müvafiq qaydada istiqamətlər üzrə yönəldilib və cavablandırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan və İtaliya Müdafiə nazirliklərinin hərbi-mülki əməkdaşlıq üzrə ekspertlərinin görüşü keçirilib



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan və İtaliya Respublikalarının hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə ekspertlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə qonaqlara Azərbaycan Ordusunda hərbi-mülki əməkdaşlıq istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Hər iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq planına əsasən keçirilən görüşlərin səmərəliliyi qeyd olunub.




İtaliya tərəfi də öz növbəsində gələcək inkişaf perspektivlərinin müzakirəsində və mövcud qabaqcıl təcrübələrin öyrənilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Tariximizin şanlı səhifəsi - “Dəmir yumruq” əməliyyatı

(Əvvəli 1-ci səhifədə)

"27 sentyabr 2020-ci il - hər birimizin çoxdan gözlədiyi zaman artıq yetişmişdi", - deyən Elvin söhbətinə davam edir. - Hərbçi olaraq xidmətə başladığım gündən erməni silahlı birləşmələrinin işğal etdiyi torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə iştirak etmək üçün Ali Baş Komandanımızın verəcəyi döyüş əmrini gözləyirdim.

Və həmin unudulmaz tarix 2020-ci ilin sentyabrına təsadüf etdi. Törədilən təxribatın cavabı olaraq ordumuz cəbhə boyu ərazilərdə düşmənə qarşı əks-həmlə əməliyyatına başladı, müasir texnikalar və qurğularla onlara sarsıdıcı zərbələr endirdi. Müxtəlif bölmələrdə olmağımıza baxmayaraq, hər birimiz müqəddəs amal uğrunda döyüşürdük. Düşmən üzləşdiyi təzyiqin qarşısında çox tab gətirə bilmədi və çıxış yolunu qaçmaqda gördü. Bölmələrimiz ermənilərin cəbhə boyu müdafiə xəttini qısa müddətdə yararaq, onların səngərlərini, mövqelərini və dayaq məntəqələrini ələ keçirdi. Biz döyüşərkən xalqımızın dəstəyini, Ali Baş Komandanımızın etimadını duyaraq döyüşürdük. Cəmi 44 gün ərzində tarixi torpaqlarımız düşməndən təmizləndi, ərazi bütövlüyümüz bərpa edildi. Hünər meydanında tarixi ədalət təmin edildi".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Emin Niftalızadə işğaldan azad olunan torpaqlarda xidmət etmənin verdiyi qürurdan danışır: "Vətən hər birimiz üçün müqəddəs məfhum, onu qorumaq isə müqəddəs vəzifədir. Tarixən bu torpaqlarımızda ata-babalarımız yaşayıb və bu gözəl yerləri bizlərə miras qoyublar. Biz də bu torpaqlarımızı göz bəbəyimiz kimi qorumalıyıq. Çünki tarixə nəzər salsaq görərik ki, bu torpağın hər qarışı uğrunda nə qədər qanlar tökülüb, onun bütövlüyü üçün canlar verilib. Ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə yüksələn oğullarımız öz adlarını göstərdikləri qəhrəmanlıqlarla şanlı tariximizə yazdırıblar. Biz də müqəddəs amala xidmət edərkən vətənpərvər oğulları özümüzə nümunə götürürük. Bu gün işğaldan azad olunan torpaqlarımızda xidmət etməyimlə qürur duyuram. Fəxr edirəm ki, güclü və qalib ordunun əsgəriyəm. Xidmət etdiyim bölmədəki komandirlərim döyüşlərin canlı iştirakçılarıdır. Onlar hər zaman bizə deyirlər ki, müharibənin başa çatması heç birimizi arxayınlaşdırmamalıdır. Unutmamalıyıq ki, qarşımızdakı düşmənimiz öz çirkin xislətiylə məşhurdur. Onun üçün də ixtisasımın sirlərinə dərindən yiyələnir, hərbi bilik və bacarıqlarımı təkmilləşdirir, komandirlərin tövsiyələrini diqqətlə dinləyirəm".



Döyüş növbəsini təhvil verən əsgər Əsədulla Quliyevlə söhbətləşirik. Xidmət etdiyi müddətin hər kəs üçün ömründə ən yaddaqalan hadisə olduğunu söyləyən Əsədulla Vətəni qorumağın övladlıq borcu olduğunu xüsusi vurğulayır: "Kiçik yaşlarımda erməni cəlladlarının millətimizin başına gətirdiyi qeyri-insani əməllər haqqında çox eşitmişəm, videogörüntüləri izləmişəm. Uzun illər ədalətsizlik hökm sürdü. Əliyalın insanlarımıza verilən işgəncələr, şaxtalı havada öz isti yuvalarından didərgin düşən soydaşlarımızın görüntüləri düşmənə qarşı nifrət hissi bəsləməyimdə əsas rol oynayan faktorlardandır. İkinci Qarabağ müharibəsində birbaşa iştirak etməsəm də, səbirsizliklə o mötəbər hadisənin iştirakçılarından biri olmaq istəyirdim. Bu mənə qismət olmasa da, bu gün azad edilən tarixi ərazilərimizdə xidmət aparmaqdan qürur duyuram. Başımızın üzərində dalğalanan üçrəngli bayrağımızı hər gördükcə, xalqımızın başına gətirilən müsibətlərin qisasının düşməndən artıqlamasıyla alındığına zərrə qədər də şübhəm qalmır", - deyə əsgər bildirir.



Vətənə məhəbbət, düşmənə nifrət hissindən danışan əsgər Ramazan Qoqayev bu ərazilərin onlara əmanət olduğunu və bu əmanəti layiqincə qorumağın vacibliyindən söz açır: "Komandirlərimiz bizə hər zaman bilikli, mərd hərbçi olmağın və düşmənə nifrət hissi ilə yanaşmağın vacibliyini bildirirlər. Çünki düşmənə nifrət etməsən, onu məğlub etmək mümkün olmaz. Onlar hər zaman bizim xoş münasibətimizdən sui-istifadə ediblər. Bu Vətən bizə atalarımızdan yadigardır, mirasdır. Ona uzanan əlləri qırmalı, kəm baxan gözləri çıxarmalıyıq".



Əsgər Elman Abdullayev burada xidmət etmənin verdiyi qürurdan danışır: "Bu gün rəşadətli Azərbaycan Ordusunun sıralarında, işğaldan azad olunan torpaqlarımızda Vətənə övladlıq borcumu yerinə yetirməkdən fəxarət hissi keçirirəm. Böyük Qələbəni qanı ilə yazan şəhidlərimizi unutmaq olmaz, onların hər birini daim ehtiramla anmalı, gələcək nəslə tanıtmalı və bizlərə əmanət qoyduqları Vətən torpağını qoruyub sonrakı nəsillərə ötürməliyik".

Qəhrəman əsgərlərimizlə tanış olmaq məni çox sevindirdi. Qəhrəman xalqın bugünkü Vətən keşikçisi oğulları ərazi bütövlüyümüzü qorumaqla yanaşı, güclü ordunun güclü əsgəri olmaq üçün daim öz üzərlərində çalışacaqlarını, Vətənin firavanlığı üçün əlindən gələni əsirgəməyəcəklərini söylədilər. Minlərlə qəhrəman oğullarımız var ki, gələcək gənclərimiz üçün vətənpərvərlik nümunələridirlər. Qısa ömürlərini şərəfli ölümlə taclandıran şəhidlərimiz bu Vətənin övladı, hər birimizin qardaşı və doğmasıdır. Ömrünün bahar çağlarında daxilindəki vətənpərvərlik hissi ilə düşmənin üzərinə atılıb, torpaqlarımızı yağılardan təmizləyən, ərazi bütövlüyümüzü canı və qanı bahasına bərpa edən oğullarımız tariximizin şanlı səhifəsi olan “Dəmir yumruq” əməliyyatının əsas memarlarındandırlar.

**Baş leytenant
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

# Hərbi Polis İdarəsinin İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitləri ilə təlim-metodiki toplanış keçirildi

*Hərbi Polis İdarəsinin tabeliyində olan bölmələrin birində İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər ilə təlim-metodiki toplanış keçirildi. Toplanışda Hərbi Polis İdarəsinin bir qrup zabit heyəti, Bərdə rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin, eləcə də Qafqaz Müsəlmanları İdarəsinin Bərdə şöbəsinin nümayəndələri və başqa qonaqlar iştirak etdilər.*





Əvvəlcə Vətən müharibəsində torpaqlarımızın müdafiəsi zamanı canından keçən şəhidlərimizin məzarüstü abidələri ziyarət olundu.

Toplanışda xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət Himni səsləndirildi.

Təlim-metodiki toplanışı giriş sözü ilə açan Hərbi Polis İdarəsinin İdeoloji iş və mənəvi-psixoloji təminatı üzrə bölmə rəisi polkovnik-leytenant Anar Əhmədov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına qarşı başlayan əks-hücum əməliyyatında, 44 günlük Vətən müharibəsində ordumuzun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığından, peşəkarlığından, vətənpərvər zabit və əsgərlərimizin qəhrəmanlıq, fədakarlıq nümunələrindən danışdı.

Bölmə rəisi çıxışı zamanı Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qarşı tərəfi sarsıdan əks-hücum əməliyyatlarından da bəhs etdi. Polkovnik-leytenant A.Əhmədovun "Şəxsi heyətin mənəvi-psixoloji durumu, hərbi intizamın möhkəmləndirilməsi sahəsində görülmüş işlər və bu istiqamətdə 2022-ci ilin 3-cü rübündə qarşıda duran tapşırıqlar" mövzusunda geniş məruzəsi dinlənildi.

Toplanışda müxtəlif mövzular haqqında geniş müzakirələr aparıldı və çıxışlar dinlənildi.

"N" hərbi hissəsinin psixoloqu baş leytenant Amil Məhyəddinov və Bərdə rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri ehtiyatda olan polkovnik-leytenant Samir Səfərov toplanışda müzakirə olunan mövzular üzrə çıxışlar etdilər.

Daha sonra yol hərəkət qaydaları üzrə aparılan maarifləndirmə işlərinin həyata keçirilməsi üzrə Bərdə rayonu Yol Patrul Xidmətinin əməkdaşı polis kapitanı Mədət Cəfərov və polis baş serjantı Fərhad Cəfərov çıxış edərək öz tövsiyələrini səsləndirdilər.

"N" hərbi birləşməsinin artilleriya şöbəsinin zabiti mayor Abdulla Mustafayev xəritənin oxunması, ərazidə səmtin müəyyən edilməsi, dayanma nöqtəsinin təyini və koordinat sistemləri barədə iştirakçılara məlumat verdi.

Toplanışın sonunda Hərbi Polis İdarəsinin İdeoloji iş və mənəvi-psixoloji təminat bölməsi rəisinin müavini mayor Rəsul Rəsulov "Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin və nizam qaydalarının qorunması hər bir hərbi qulluqçunun borcudur" mövzusunda məşğələni şərh etdi, təhlillər apardı və mövzu ətrafında şəxsi heyətlə geniş diskussiya keçirdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Mühəndis-istehkamçıların peşəkarlıq səviyyəsi artırılır

*2022-ci ilin hazırlıq planına əsasən, Mühəndis Qoşunlarında şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da artırılması məqsədilə müntəzəm olaraq nəzəri və praktiki dərslər, məşğələlər keçirilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin mütəxəssislərinin də iştirakı ilə keçirilən dərslərdə hərbi qulluqçular xüsusi hazırlanmış mühəndis şəhərciyində minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə bacarıqlarını təkmilləşdirirlər.

Məşğələlərin keçirilməsində əsas məqsəd hərbi qulluqçulara mühəndis-istehkam qurğularının taktiki-texniki xüsusiyyətləri və onlardan istifadə qaydalarının öyrədilməsi ilə şəxsi heyətin döyüş hazırlığının artırılmasından ibarətdir.

# "Dəmir yumruq" ətrafında birləşərək düşmənə sarsıdıcı zərbə vurduq"

*Döyüşə gülə-gülə gedirdik. Hamımızda böyük ruh yüksəkliyi vardı. Bir yerdə mahnı, marş, Azərbaycan Himnini oxuyurduq. Qarabağı azad etməmiş geri qayıdası deyildik. Arzumuz, niyyətimiz, məqsədimiz düşməni məhv etmək, torpaqlarımızı işğaldan azad edərək, üçrəngli bayrağımızı dalğalandırmaq idi. O da bizə qismət oldu. Bütün xalqımız "dəmir yumruq" ətrafında birləşərək düşmənə sarsıdıcı zərbə vurduq.*

Bunu AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində Tərtər rayonundan olan Vətən müharibəsi qazisi Misir Axundov deyib.

2020-ci il sentyabrın 27-də ərazi bütövlüyümüz uğrunda savaşa atılan Misir çətin, lakin çox şərəfli bir döyüş yolu keçib. Füzuli, Xocavənd istiqamətində gedən hərbi əməliyyatlarda iştirak edib. Hətta hərbi hissəyə onun şəhid olması xəbəri də gəlib.

Misir Axundov Vətən müharibəsi başlayan gündən döyüşlərdə iştirak edib: "Sentyabrın 27-də Füzuli istiqamətində döyüşlərə başladıq. Bir gün meşədə sığınacaqda qaldıq. Mən öndə mövqe tutaraq düşmənin hərbi hissə və ağır artilleriyalarının koordinatlarını döyüşçülərə ötürürdüm. Lakin ermənilər yerimizi aşkarlayaraq bizə atəş açdılar. Döyüş yoldaşım ayağından yaralandı, ona ilkin tibbi yardım göstərdim. Sonra onun rabitə vasitəsini götürərək irəli getdim. Müşahidə zamanı lap yaxınlığıma top mərmisi düşdü. Güclü partlayışdan özümü itirdim. Hərbi hissə komandiri bir gün sonra məni ərazidən çıxarıb. Həmin vaxt nəbzim vurmadığından şəhid olduğumu düşünüblər. Hərbi hissəyə də şəhid olmağım barədə məlumat verilib. Məni morqa yerləşdiriblər və üç gün orada qaldıqdan sonra ani refleks nəticəsində sağ olduğumu görüb təcili Bakıya göndəriblər. Mərkəzi Gömrük Hospitalında başımdan əməliyyat olunmuşam. Huşum özümə gələndə tibb işçilərinin başımın üstündə dayanaraq "qorxma, səni xilas edəcəyik, qoymarıq ki, sənə nəsə olsun", - dediklərini eşitdim".

Misir Axundov şəhid ailələrinə, müharibə iştirakçıları və qazilərə göstərilən dövlət dəstəyindən razılıq edib. Bildirib ki, 20 gün koma vəziyyətində qalıb. Həkimlərin və tibb işçilərinin səyi ilə həyata qayıdıb. Evə qayıdandan bir müddət sonra yenidən komaya düşüb. Valideynləri "YAŞAT" Fonduna müraciət edib. Onu ikinci dəfə əməliyyat ediblər. "YAŞAT" Fondu qazinin müalicəsi ilə yanaşı, yaşadığı evin təmirinə də köməklik göstərib. Tərtər rayon İcra Hakimiyyətinin dəstəyi ilə qazimizin anası işlə təmin edilib.

Qeyd edək ki, Vətən müharibəsi qazisi Misir Axundov Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə malik güclü ordu

## Azərbaycan Silahlı Qüvvələri qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir

Son bir neçə ildə ordu quruculuğunda görülən işlərin təhlilini aparsaq, görərik ki, ötən illər bizim üçün səmərəli, nailiyyətlərlə dolu və ordu quruculuğu prosesində başucalığı gətirən dövr olub. Ordu quruculuğunun bizim üçün ən başlıca və prioritet məsələ olduğunu vurğulayan Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırığına əsasən, kompleks şəkildə aparılan islahatlar Silahlı Qüvvələrdə bütün istiqamətləri əhatə edə bilib. Bunun nəticəsidir ki, ordumuz aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməyə nail ola bilib və güclü ordularla bir cərgədə dayanmağa layiq olduğunu sübut edib.

Ali Baş Komandanın atdığı uğurlu addımlar sayəsində Azərbaycanın iqtisadi qüdrətlənməsi hərbi büdcəmizin də sürətlə yüksəlməsinə səbəb oldu. Bu istiqamətdə artım tendensiyasının ölkəmizdə davamlı olması da qürurvericidir. Son bir neçə ildə ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu proses mərhələlərlə, planlı surətdə həyata keçirilməkdə davam edir.

Azərbaycan Ordusunda aparılan islahatlar, onun döyüş qabiliyyətinin yüksəlməsi üçün qəbul edilən qərarların düzgün, əhəmiyyətli, uğurlu olmasına 2016-cı ilin aprel ayında həyata keçirilən əks-həmlə əməliyyatının, 2018-ci il uğurlu Günnüt əməliyyatının, 2020-ci il Tovuz döyüşlərinin və Vətən müharibəsinin tarixi Zəfərimizlə başa çatması ən dolğun əyani sübut və bariz nümunədir.

Vətən müharibəsində qazandığımız Qələbə Azərbaycan xalqının şanlı qəhrəmanlıq salnaməsinin təcəssümüdür. Haqq savaşında canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsi yaddaşlarda əbədi yaşayacaq. Bu gün biz qalib orduyuq. Müzəffər Ali Baş Komandanımızın müdrik hərbi strategiyası əsasında Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində rəşadət və şücaət göstərərək düşmənin 30 ildən çox davam edən hərbi təcavüzünə son qoydu, Vətən və xalq qarşısında şərəfli vəzifəsini layiqincə yerinə yetirdi. Doğma Vətənin keşiyində yüksək əhval-ruhiyyədə dayanan Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızın müdafiəsi naminə Ali Baş Komandanının hər bir əmrinə daim hazırdır.

AZƏRTAC Azərbaycanda nizami ordu quruculuğu, hərbi sahədə aparılan islahatlar, Silahlı Qüvvələrin keçdiyi inkişaf yolu, müasir silahlarla təchizatı, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması və sosial məsələlərinin həlli ilə bağlı bəzi önəmli məqamlara bir daha nəzər salır.

## Müasir Azərbaycan Ordusunun qurulması, inkişafı və möhkəmlənməsi Heydər Əliyevin siyasi uzaqgörənliyinin məntiqi nəticəsidir

Azərbaycan Silahlı Qüvvələrinin şərəfli tarixi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Müasir Azərbaycan Ordusunun qurulması, inkişafı və möhkəmlənməsi Heydər Əliyevin siyasi uzaqgörənliyinin məntiqi nəticəsidir. Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetişdirdiyi milli zabit kadrlarımızın müstəsna rolu olub. Onlar Birinci Qarabağ müharibəsində, Aprel, Tovuz döyüşlərində və Vətən müharibəsində misilsiz igidliklər göstəriblər.



Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ordu quruculuğu sahəsində genişmiqyaslı işlər görüldü, hərbi hissələr tam komplektləşdirildi. Ordumuz ulu öndər Heydər Əliyevin tapşırığı ilə uğurlu hücum əməliyyatları keçirərək düşmənə sarsıdıcı zərbələr endirdi. 1994-cü ildə Füzuli rayonunun 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Ordu quruculuğu işinə böyük önəm verən ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, bu yaxınlarda artıq ikinci ildir qalib ordu kimi qeyd etdiyimiz 26 İyun - Silahlı Qüvvələr Günü elan olundu.

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən və zənginləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı istiqamətdə davamlı addımlar atıldı. Bu yüksək diqqət və qayğı nəticəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadi potensialın və böyük maliyyə imkanlarının yaradılması müasir ordu quruculuğu və hərbi məsələlərin yüksək səviyyədə həllinə imkan yaratdı. Bu məqsədlə hər il dövlət büdcəsində müdafiə xərclərinə böyük vəsait ayrıldı, ölkənin müdafiə sənayesi yaradıldı, ordu ən müasir silahlar və texnikalarla təchiz edildi, hərbi sahədə əməkdaşlıq əlaqələri genişləndirildi. Modernləşdirilən Azərbaycan Ordusunun qüdrəti bu gün beynəlxalq səviyyədə etiraf edilir. Silahlı Qüvvələrimiz indi dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. Hazırda Azərbaycanın müdafiə sənayesi müəssisələrində mindən çox hərbi təyinatlı məhsul istehsal edilir.

Ordumuzun hərbi qüdrəti 2011-ci il iyunun 26-da Bakıda Ali Baş Komandan, Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü münasibətilə keçirilən hərbi paradda əyani nümayiş etdirildi. Rəşadətli ordumuz öz gücünü 2016-cı ilin Aprel döyüşlərində bir daha göstərdi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi azad edildi. Azərbaycan Ordusu daha bir uğurunu 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycanın nəzarəti altına keçdi.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad təşkil edildi. Paradda iştirak edən Prezident, Ali Baş Komandan İlham Əliyevin qəti əminliklə dediyi sözlər - xalqımızın həsrətlə gözlədiyi qələbə arzuları çox keçmədən reallaşdı.

Azərbaycan Ordusu növbəti uğurunu 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşləri zamanı əldə etdi. Ermənistan ordusunun ölkəmizə qarşı növbəti təxribatının qarşısının alınması ilə başlayan beşgünlük İyul döyüşlərində rəşadətli ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq onun mənfur niyyətinin qarşısını aldı. Tovuz döyüşləri zamanı 12 sayseçmə hərbi qulluqçumuzu şəhid versək də, bu hadisələr Azərbaycanın hərbi üstünlüyünün təsdiqi kimi tarixə yazıldı, eyni zamanda, xalqımızın, ordumuzun hər bir əsgər və zabitinin Ali Baş Komandanın ətrafında daha sıx birləşməsinə zəmin yaratdı. Bu döyüşlər Silahlı Qüvvələrimizin şanlı Zəfər qazandığı Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən biri oldu.

## Vətən müharibəsindən sonra ordumuzun daha da gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, yeni komando bölmələri yaradılıb

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində rəşadətli ordumuzun qazandığı şanlı Qələbə tariximizə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusunun döyüş əməliyyatları, xüsusən Şuşa əməliyyatı hazırda dünyanın qabaqcıl hərb məktəblərində öyrənilir və araşdırılır.

2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda keçirilmiş möhtəşəm Zəfər Paradını xüsusi qeyd etmək lazımdır. Düşməndən qənimət kimi götürülmüş silah-sursat və texnika ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız bu paradda göstərildi. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürdü. Çox qısa zamanda görülən genişmiqyaslı işlər yekunlaşdı - açıq səma altında nadir park salındı. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Şanlı Qələbəni xalqımıza yaşatmış rəşadətli ordumuzun qəhrəmanlığını yüksək qiymətləndirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-2021-ci illərdə imzaladığı sərəncamlarla döyüşlərdə igidlik göstərmiş hərbi qulluqçular müxtəlif orden və medallarla təltif edildilər.

İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycan Ordusunun daha da gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, silah-sursat təchizatı daha da yaxşılaşıb, komando bölmələri yaradılıb. 2021-ci il dekabrın 24-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində hərbi hissənin açılışında çıxış edərək Komando hərbi hissəsinin yaradılmasının əhəmiyyətindən, müharibədən sonra imzalanmış yeni kontraktlar əsasında ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar alınmasından, hərbi xərclərin artırılmasından danışıb: "Hadrutda yeni hərbi hissənin açılması bir daha demək istəyirəm ki, çox əlamətdar hadisədir. Həm ona görə ki, bu bölgə strateji əhəmiyyət daşıyır; Hadrutda bizim güclü silahlı birləşməmiz təhlükəsizliyimizi, ölkəmizin təhlükəsizliyini qoruyacaq, - digər tərəfdən ona görə ki, bu, azad edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmuş yerdə yerləşir. Eyni zamanda, bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq. Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq Azərbaycana ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik. Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması, - bütün bunlar göz qabağındadır, - onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq".

Prezident İlham Əliyev bu il yanvarın 1-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində müasir silahların, texnikaların alınmasına, yeni hərbi birləşmə olan Komando Qüvvələrin yaradılmasına toxunaraq deyib: "Biz hərbi gücümüzü bundan sonra da artıracağıq. 2021-ci ildə də bu istiqamətdə əməli addımlar atılıb, yeni silahlar, texnikalar alınıb və alınacaqdır. Eyni zamanda, hərbi birləşmələrimizin hazırlıq işinə də böyük əhəmiyyət verilir. İkinci Qarabağ müharibəsində bütün dünya Azərbaycanın hərbi gücünü gördü, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları artıq bütün dünya tərəfindən tanındı, onların qəhrəmanlığı, fədakarlığı, peşəkarlığı dastana çevrildi. Onu da bildirməliyəm ki, bu il artıq Azərbaycanda yeni hərbi birləşmə yaradılmışdır - Komando Qüvvələri. Bu Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və artacaq. Beləliklə, yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin yaradılması onu deməyə əsas verir ki, biz hər an öz torpaqlarımızı, öz sərhədlərimizi qorumağa hazır olmalıyıq. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi insidentlər onu göstərdi ki, Azərbaycan üstünlüyü tam öz əllərində saxlayır".

**(Ardı 5-ci səhifədə)**

# Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə malik güclü ordu

(Əvvəli 4-cü səhifədə)

## Hərbi sahədə aparılan islahatlar, ordumuzun qardaş Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılması

Ali Baş Komandanın göstərişinə əsasən, bu ilin altı ayı ərzində hərbi sahədə genişmiqyaslı struktur islahatları aparılıb, eləcə də hərbi təhsil sahəsində dəyişikliklər olub. Təlimlərlə bağlı ciddi addımlar atılıb, yeni silahlı birləşmələr yaradılıb. Hazırda bu islahatlar davam edir və bu istiqamətdə böyük işlər görülür. Ordumuz qardaş Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılır. Uğurlu "Dəmir yumruq" əməliyyatından sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin kiçik modeli kimi yeni keyfiyyət mərhələsinə yüksəlməsi, habelə qoşunların ən müasir silah və hərbi texnika, bütün təminat növləri ilə təchiz edilməsi barədə müvafiq göstərişlər verdi. Eyni zamanda, dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Ordusunun təşkilati-ştat quruluşunda əsaslı dəyişikliklər aparıldı və Azərbaycan Ordusunun tərkibində Quru Qoşunları, əməliyyat (komando) birləşmələri və Milli Müdafiə Universiteti yaradıldı. Həmçinin Xüsusi Təyinatlı Qüvvələr və Hərbi Dəniz Qüvvələrinin ştatlarının optimallaşdırılması həyata keçirilərək qüvvə və vasitələrinin sayı artırıldı.





Heç kimə sirr deyil ki, son illər Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə uğurla fəaliyyət göstərir və ordumuzu keyfiyyətli məhsullarla təmin edir. Azərbaycanın hərbi sənaye zavodlarında bütün növ patronlar, tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz uçuş aparatları da daxil olmaqla, mindən artıq çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir.

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək danılmazdır. Ötən il iyunun 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin qardaş ölkələr arasında strateji müttəfiqlik barədə imzaladıqları Şuşa Bəyannaməsinin ikitərəfli münasibətlərin inkişaf etdirilməsində müstəsna rolu var. Bəyannamədən irəli gələn fəaliyyətlər Azərbaycan Ordusunda planlı şəkildə yerinə yetirilir.

Azərbaycan Ordusunda həyata keçirilən islahatlar çərçivəsində yaradılan əməliyyat (komando) birləşmələrinin şəxsi heyəti peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Türkiyə Silahlı Qüvvələrinin bazasında hazırlıq kurslarına cəlb edilib. Hazırlıq kurslarında fərqlənən və yüksək nailiyyətlər qazanan hərbi qulluqçular əlavə olaraq təlimatçı kurslarına cəlb ediliblər. Nəticədə Azərbaycan Ordusunda Komando Təlim Mərkəzi yaradılıb. Hazırda həmin təlim mərkəzində bu birləşmələr üçün şəxsi heyətin hazırlanması davam etdirilir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu il iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə bu hərbi birləşmələrin əhəmiyyətini xüsusi vurğulayıb: "Altı ay bundan əvvəl, dekabrın 24-də birinci komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir".

Bundan başqa, Türkiyə Silahlı Qüvvələrinin bazasında hazırlanmış təlimatçıların cəlb olunması ilə Komando Təlim Mərkəzinin nəzdində "Snayper hazırlığı kursu" fəaliyyətə başlayıb və bir neçə hazırlıq mərhələsi üzrə peşəkar snayperlərin hazırlanmasına nail olunub.

Vətən müharibəsində əldə edilmiş təcrübələrə əsasən qoşunların idarə edilməsi ilə bağlı Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri komandanlıqlarında Döyüşü İdarəetmə mərkəzləri və onların tabeliyində olan bölmələrdə döyüşü idarəetmə qrupları yaradılıb, heyətlərin hazırlığı və onların komplektləşdirilməsi işləri təşkil edilib.

Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrində Vətən müharibəsinin təhlili aparılıb, nəticələrinin tətbiqi məqsədilə tədris proqramlarında yeniliklər edilib. Elm və təhsilin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması çərçivəsində Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsi, hərbi elm və təhsil sisteminin inkişafı, Azərbaycan Ordusunda ali təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlarla təminatın həyata keçirilməsi, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, onlarda praktik fəaliyyətdə elmi yanaşma bacarıqlarının formalaşdırılması, elmi nəticələrin ölkənin müdafiə qüdrətinin yüksəldilməsində və ordu quruculuğunun təkmilləşdirilməsində səmərəli tətbiqi, habelə dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsinin təmin edilməsi məqsədilə hərbi təhsil sistemində qardaş ölkənin hərbi təhsil sisteminin tətbiqi istiqamətində uğurlu iş aparılıb.

Milli Müdafiə Universiteti tabeliyində xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını, ümumi təhsilin tam orta təhsil, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsini təmin edən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi kimi fəaliyyət göstərəcək. Xüsusi təyinatlı təhsil müəssisələrinin strukturunda əsaslı dəyişikliklərin olunması Azərbaycan Ordusunda elm və təhsilin səviyyəsinin Türkiyənin və inkişaf etmiş digər ölkələrin hərbi elm və təhsil sisteminə uyğunlaşdırılmasına töhfə verəcək.

## Hərbi xərclərimiz hər il artırılır, hərbçilərin sosial məsələlərinin həlli daim diqqət mərkəzində saxlanılır

Ötən müddətdə yeni müqavilələr imzalanıb, ordumuz üçün müasir hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Prezident İlham Əliyev iyulun 15-də bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində hərbi xərclərin artırılmasına toxunaraq bildirib ki, artan iqtisadi və maliyyə imkanlarımızın bir hissəsi məhz bu məsələlərə istiqamətləndirilib: "Büdcəyə əlavələr edildi, dürüstləşmə edildi və orada hərbi xərclər əhəmiyyətli dərəcədə artırıldı. Nə üçün? Deməli, buna əsas var. Biz hərbi xərclərimizi keçən il bu ilin büdcəsi təsdiq olunanda təsbit etmişdik və hesab edirdik ki, bu, kifayətdir. Ancaq sonra, bax, dediyim məsələlərə görə və digər məsələlərə görə, burada demədiyim məsələlərə görə biz hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır. Bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. Mən bunu da demək istəyirəm. Çünki biz görürük ki, yeni imzalanmış kontraktlara ehtiyac var. Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüquqmuzu istənilən yolla təmin edək".

Dövlətimizin başçısı bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında hərbçilərin xidmət şəraiti və sosial müdafiəsi məsələlərinə də toxunaraq bunun Azərbaycanda yüksək səviyyədə həllini tapdığını söyləyib: "Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır. İndi qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik. Əlbəttə ki, müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir və müvafiq göstərişlər verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu müddət ərzində, müharibədən sonrakı dövr ərzində böyük işlər görüb, bunu hamı bilməlidir".

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinin tərkib hissəsi olan hərbi obyektlərin tikilməsi və hərbi infrastrukturun yaradılması, hərbi hissələrdə xidməti-döyüş şəraitinin yaradılması və sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində mühüm işlər görülüb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrin şəxsi heyətinin məişət şəraitinin yaxşılaşdırılması və fasiləsiz təminatını təşkil etmək məqsədilə yeni yataqxana, yeməkxana, hamam-camaşırxana kompleksi, anbarlar və digər obyektlər istifadəyə verilib. Vətən müharibəsindən sonrakı müddətdə yeni tikilən, təmir-bərpa işləri aparılan obyektlərin sayı 200-ə yaxındır. Bu, həm dövlətimizin iqtisadi qüdrətinin, həm də Prezidentimizin ordumuza diqqət və qayğısının bariz nümunəsidir.



Xalqımızın otuz illik arzusunu reallığa çevirərək hərbi qüdrətini bütün dünyaya göstərən ordumuzun qəhrəman əsgər və zabitləri bu gün işğaldan azad edilmiş ərazilərimizin mühafizəsi və müdafiəsində "Dəmir yumruq" kimi dayanıblar.

Vətən müharibəsi xalqın öz ordusuna inamının, sevgisinin nümayişi, Azərbaycan hərbçisinin rəşadəti, qarşısına qoyulan bütün döyüş tapşırıqlarını şərəflə, dəqiqliklə yerinə yetirməsinin ifadəsidir. Bu Qələbəni şərtləndirən əsas amillərdən biri xalqımızın Azərbaycan Ordusunun qüdrətinə inamı idi. Eyni zamanda, bütün dünya yeni əsrin müharibəsini aparmış ordumuzun gücünü, peşəkarlığını və öz tarixi missiyasını uğurla reallaşdırmaq iqtidarında olduğunu gördü.

Azərbaycan xalqı ona Qələbə sevinci yaşatmış Rəşadətli ordusu, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı ilə haqlı olaraq qürur duyur.

Heç şübhəsiz, ölkəmizdə ordu quruculuğu Ali Baş Komandanın tapşırığına əsasən növbəti illərdə də prioritet sahələrdən biri olacaq. Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, mükəmməl döyüş hazırlığına və ruh yüksəkliyinə malik Azərbaycan Ordusu işğal altında olmuş torpaqları azad etməklə ölkəmizin ərazi bütövlüyünü təmin edib. Hazırda Silahlı Qüvvələrimiz artıq yeni uğurlara imza atmağa və Ali Baş Komandanın hər bir əmrini icra etməyə qadirdir.

**Məmməd İSAYEV**
**AZƏRTAC**

# "Qazilərə diqqət göstərmək yalnız dövlətin deyil, həm də hər bir Azərbaycan vətəndaşının borcudur"

Xalqımızın ümummilli lideri Heydər Əliyev hərb tariximizə sonsuz ehtiram və sevgi ilə yanaşaraq, əsrlər boyu torpaqlarımıza təcavüz edən yadelli işğalçılar qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarının hünər və rəşadətlərini həmişə yüksək qiymətləndirmiş, yeni nəslin vətənpərvərlik tərbiyəsində ata və babalarımızın qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri şərəf və vicdanla davam etdirməyi tövsiyə etmişdir.

Ümummilli lider Heydər Əliyevə görə, xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz. Gələcək qəhrəmanlıqların, igidliklərin təməli məhz tariximizdədir, sələflərin keçdiyi şanlı döyüş yolundadır. Hər bir xalq bu yolu keçib. Əgər hər hansı bir xalq tarix səhnəsindədirsə, deməli, onun tarixi inkişafında, xalq kimi formalaşmasında özünəməxsus qəhrəmanlıq nümunələri olmuşdur.

Ulu Öndər müharibə veteranlarını xalqımızın qızıl fondu adlandırar, onların xidmətlərinə xüsusi önəm verər və hər bir müharibə iştirakçısını, qazini, veteranı, orduda xidmət edən əsgərləri xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlar kimi qiymətləndirər və onları ölkə vətəndaşlarının hər birindən daha yüksəkdə tutardı.

Bu fikirləri Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani AZƏRTAC-a açıqlamasında deyib.

Polkovnik A.Qurbani bildirib ki, Heydər Əliyevin bu istiqamətdə ibrətamiz ənənələri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir, müharibə iştirakçıları, şəhid ailələri və qazilərimizə hərtərəfli dövlət qayğısı göstərilir.

Dövlətimizin başçısının sədrliyi ilə 2022-ci ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə Vətən müharibəsindən sonra şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışarkən Müzəffər Ali Baş Komandan İlham Əliyev "Bunu mənəvi borc bilirik, edirik və edəcəyik" deyə hər kəsi bu kateqoriyadan olan insanlara həssaslıqla yanaşmağa, onların problemlərinin həlli istiqamətində fəaliyyətlərini daha da genişləndirməyə çağırıb.

Etiraf edək ki, şəhid ailələrinə, müharibədə sağlamlığını itirən qazilərə nə qədər diqqət və qayğı göstərilsə də, onların həlli istiqamətində digər ölkələrlə müqayisədə daha çox məqsədyönlü tədbirlər həyata keçirilsə də, hələ də bütün qaziləri razı salmaq və mövcud problemlərin qısa müddətdə həllinə nail olmaq mümkün deyil. Yaşlı nəsil yaxşı xatırlayar, İkinci Dünya müharibəsindən sonra müharibə əlillərinin problemlərinin həlli istiqamətində dövlət səviyyəsində mühüm proqramlar həyata keçirilirdi. Lakin yenə də bu qisim insanlar göstərilən diqqət və qayğıdan heç də məmnun deyildilər. Respublika hökuməti bir yana, hər gün Azərbaycandan da Moskvaya, Kremlə, hətta Leninin mavzoleyinə neçə-neçə şikayət məktubları ünvanlanır, daha çox imtiyazlar tələb olunurdu. Bu, təbiidir. Axı günlər keçdikcə qayğılar, problemlər də çoxalır və müharibə əlilləri dövlətdən daha çox maddi və mənəvi dəstək umurdular. Onlar haqlı idilər. Çünki öz sağlamlıqlarını Vətənin müdafiəsi uğrunda, qanlı döyüşlərdə itirmiş və dövlətin himayəsinə daha çox güvənirdilər.

Bir anlığa gəlin fikirləşək, müharibə əlillərinə, qazilərinə yalnız dövlətmi mənəvi, maddi dəstək göstərməlidir?! Xeyr! Ölkədə nə qədər qeyri-hökumət təşkilatları, iş adamları, xeyirxah insanlar və vicdanlı vətəndaşlarımız var. Bu istiqamətdə hər kəs əlindən gələn köməyi göstərməli, qazilərimizə dəstəyini əsirgəməməlidir.




Mən dəfələrlə demişəm, yenə də deyirəm: Əsgəri güllə öldürmür, qazini savaşda aldığı yaralar göynətmir, şəhid valideynlərini övladlarının itkisi yandırmır, onları laqeydlik, biganəlik son həddə çatdırır. Odur ki, bu kateqoriyadan olan həssas insanlar dövlətlə yanaşı, həm də xalqın daimi diqqət və qayğısı ilə əhatələnməlidirlər.

Biz xoşbəxt xalqıq ki, 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində Qələbə çaldıq, ərazi bütövlüyümüzü bərpa etdik, tarixi torpaqlarımızın işğaldan azad olunmasına nail olduq. Təsəllimiz ondadır ki, döyüş meydanlarında şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan şəhidlərimizin, qazilərimizin intiqamını aldıq, düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik. Biz xoşbəxt xalqıq ki, müstəqil dövlətimiz, rəşadətli ordumuz, Vətən uğrunda canından keçməyə hər an hazır olan igid övladlarımız və Müzəffər Ali Baş Komandanımız var.

Bu yaxınlarda Sabirabad rayonunda bir qazinin hamının gözü qarşısında özünü yandıraraq intihara cəhd etməsi və az sonra dünyasını dəyişməsi bütün xalqımız kimi, məni də çox kədərləndirdi. Bu, belə olmamalıydı. Ən azı bu mənzərəni kənardan seyr edən, telefonun yaddaşına köçürən insanların laqeydliyi, bu mənzərəni sanki filmə, tamaşaya baxmaq kimi izləyənlərin soyuqqanlılığı, qızışdırıcı mövqe sərgiləməsi heç kimə başucalığı gətirmir.

Qazilərimizə təkcə dövlət, dövlət məmurları deyil, hər kəs diqqət yetirməli, onu doğması, əzizi bilməlidir. Unutmayaq ki, kibrit soyuqdur, lakin ona təsir etməklə istilik almaq olar. Ən azı, qazilərə mənəvi dəstək göstərilməli, cəmiyyətdə onlara münasibət birmənalı olaraq kökündən dəyişilməlidir. Müharibənin onlara vurduğu sağalmaz zədələrdən, psixoloji sarsıntılardan istifadə edərək qaziləri dövlətə bu və ya digər məmura qarşı vasitəyə çevirmək heç də milli-mənəvi dəyərlərimizlə uzlaşmır.

Mən bununla bağlı öz düşüncələrimi və qarşılaşdığım bəzi məqamları bölüşmək istəyirəm.

Bu başdan deyim ki, ilk növbədə qeyd edim, qazilərimizin vəziyyətinin yaxşılaşdırılması üçün zamanın tələbləri baxımından mühüm layihələrin gerçəkləşməsinə, qanunvericilik aktlarında olan boşluqların doldurulması üçün mütəxəssislərin iştirakı ilə onlara yenidən baxılmasına çox ehtiyac duyulur.

Heç kim unutmamalıdır ki, hər bir şəhid, şəhid ailəsi qədər qazilərimiz də hər cür hörmətə, qayğıya, maddi və mənəvi dəstəyə layiqdirlər. Etiraf etməliyik ki, elə şəhidimiz var, bir ildə onun şərəfinə onlarla anım tədbiri təşkil edilir, ailəsi mütəmadi olaraq ziyarət olunur. Bu, gözəldir, insani, xeyirxah, humanist münasibətdir. Ancaq yaddan çıxarılmamalıdır ki, bunun həsrətində olan yüzlərlə qazi və qazi ailələri də var.

Yaxşı yadımdadır, keçən əsrin 80-ci illəri idi, Naxçıvan Muxtar Respublikası Şərur rayon Mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləyirdim. O vaxtlar müharibə veteranları, Əfqanıstan döyüşlərinin iştirakçıları olan beynəlmiləlçi döyüşçülər mədəni-maarif ocaqlarının da diqqət mərkəzində idi. Bilavasitə onların iştirakı ilə silsilə tədbirlər keçirər, gənclərin vətənpərvərlik tərbiyəsi işində onları örnək kimi göstərərdik.

Bir gün Yuxarı Yaycı kəndində keçirəcəyimiz folklor festivalına gedərkən yolun sol tərəfində əlil arabasında oturmuş bir gənc diqqətimizdən yayınmadı. Avtomobili əyləyib onunla görüşdük. Hal-əhval tutub, vəziyyəti ilə maraqlandıq. Məlum oldu ki, Əfqanıstanda aparılan hərbi əməliyyatlar zamanı aldığı xəsarətlərdən kifayət qədər müalicə olunsa da, nəticə verməyib və ömrü boyu əlil arabasında yaşamaq qədəri ilə barışıb. Əlində bir balaca radio var idi. Muğama qulaq asırdı. Ürəyindən nələr keçdiyi, nəyə ehtiyacı olduğu ilə maraqlandıq: "Desəm ki, məni məhkum olduğum bu əlil arabadan xilas edin, alınmayacaq. Bunun üçün Allahın bircə möcüzəsi kifayət edər. Ancaq mənim də canlı bir musiqiyə, gözəl bir muğama qulaq asmağım üçün dəstək olacaqsınızsa, özümü xoşbəxt hesab edərəm", - dedi və baxışları uzaqlara zilləndi. Elə həmin andaca mədəniyyət evinin muğam üçlüyünü avtobusdan endirib yaralı döyüşçü üçün, sözün həqiqi mənasında, muğam dəsgahı yaratdıq.

Həmin görüşdən sonra hər həftə bir nəfər tamaşaçı üçün xüsusi konsert proqramı təşkil edərdik. Əlbəttə, artıq tamaşaçılar da çoxalmışdılar. Qohum-qonşu bilirdi ki, hər həftə yaralı əsgər üçün konsert təşkil olunacaq. Bu həm əsgərə, onun ailəsinə mənəvi dəstək idi, həm də qohum-qonşuya xidməti borcunu şərəflə yerinə yetirən əsgərə göstərilən diqqət və qayğının təzahürü idi.

Aprel döyüşlərindən az sonra yüzə yaxın müharibə qazisi və şəhid ailəsi üzvlərini Yeni Azərbaycan Partiyasının, şəxsən sədr müavini Əli Əhmədovun dəstəyi ilə Lənkərana on gün müddətinə istirahət mərkəzinə apardıq. Orada keçirilən mənalı günləri, bir-birindən maraqlı tədbirləri qazi və şəhid ailələri bu gün də xoş təəssüratlarla xatırlayırlar. Əlil arabasında yaşamını davam etdirən döyüşçü zabit Azər Məmmədov və onun valideynləri bu günlərdə mənə telefon açaraq belə tədbirin təkrarlanacağı günü səbirsizliklə gözlədiklərini bildirdilər. İnşallah, Baş nazirin müavini Əli Əhmədovun dəstəyi ilə bu tədbiri təkrarlayacağımıza əminik.

İyulun əvvəllərində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Yevlax rayonunda şəhid və qazi ailələri üçün gözəl vətənpərvərlik tədbiri keçirirdik. Orada bir ana mənə yaxınlaşaraq dedi ki, oğlum Yusif dövlətin dəstəyi ilə həm respublikamızda, həm də qardaş Türkiyənin ən qabaqcıl tibb ocaqlarında aylarla müalicə alıb. Ancaq Vətən müharibəsində aldığı xəsarətlərin yaratdığı fəsadlardan hələ də onu xilas etmək mümkün olmayıb. Hazırda Buzovna Reabilitasiya Mərkəzindədir. İyulun 6-da ad günündə sizin oğluma baş çəkməyiniz, ona mənəvi dəstək olmağınız Qələbənin yaratdığı xoş əhval-ruhiyyə ilə yaşayan, ruhdan düşməyən Yusifin bəlkə də əlil arabasından tezliklə qalxacağına inamını daha da artırar.

Anaya söz verdim ki, hökmən Yusif qardaşımızı ziyarət edəcək və onu ad günündə sevindirəcəyik. Bu barədə Müdafiə Nazirliyinin rəhbərliyini də məlumatlandırdım.

Heç bilirsiniz, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yusif Ağaməhəmmədov və onun döyüşçü dostları, ətrafına toplaşanlar bu görüşü necə maraqla izləyirdilər?!

General-mayor Bəkir Orucov müdafiə nazirinin şəxsi hədiyyəsini qazimizə təqdim edərək keçmiş əsgərini bağrına basır, apardığımız qızılgül çələngini onun oturduğu əlil arabasının qarşısına qoyuruq. Bu diqqəti görən Zəhra ana kövrəlir, qazimiz isə başını dik tutaraq "Mən bu gün də Müzəffər Ali Baş Komandanın əmrlərinə, döyüşlər təkrarlanarsa, bədənimə partlayıcı bağlayıb, əlil arabasında belə özümü düşmən tankının altına atmağa hazıram", - deyir.

Belə hadisələr kifayət qədərdir və respublikamızın bölgələrində şəhid ailələrinə və qazilərə baş çəkərkən belə duyğusal hadisələrin tez-tez şahidi oluruq.

Bu ilin martında böyük Azərbaycan sevdalısı, Türkiyənin milli müdafiə naziri hörmətli Hulusi Akarın dəvəti ilə qardaş ölkənin şəhid ailələri ilə görüşə getmişdim. Çox gözəl mərasimlərin şahidi oldum. "TRT" bu mərasimlərdən birini canlı yayımladı. Həmin tədbirlərdə şəhidlərin xatirəsinə yazdığım elegiyaları söylədim. "Torpaq su ilə qarışanda palçıq, qanla qarışanda Vətən olar" fikirlərim tədbir iştirakçıları tərəfindən ayaqüstə qarşılandı. Sonra da Türkiyənin ən böyük şəhərlərindən biri olan Bursaya getdik. Bursada və digər bölgələrdə müalicə olunan qazilərimiz, onları müalicə edən tibb işçiləri, şəhər ictimaiyyətinin nümayəndələri, eləcə də Azərbaycanın Türkiyə Respublikasındakı səlahiyyətli səfiri Rəşad Məmmədov, hərbi attaşemiz polkovnik Müşfiq Məmmədov, Azərbaycandan dəvət edilən muğam üçlüyü və Bursanın ali təhsil müəssisələrində təhsil alan türk ölkələrinin gəncləri Azərbaycan qazilərinin şərəfinə elə bir Novruz şənliyi təşkil etdilər ki, uzun müddət yaddaşlardan silinməyəcək.

Türkmən, özbək, qırğız, türk gəncləri qazilərimizin şəninə şeirlər söylədi, mahnılar oxudu, rəqslər ifa etdilər.

Bir an da olsun əllərini oğlunun əlil arabasından üzməyən Şəki şəhərindən olan ananın "Oğluma toy eləsəm, gələrsənmi?" sualı məni nə qədər kövrəltsə də, "Gələrəm, niyə gəlmirəm ki. O toyda iştirak etmək ömrümün ən xoşbəxt anlarından birinə çevrilər" deyərək həm qəhrəman qazimizi, həm də ananı bağrıma basdım...

Ümumiyyətlə, 10 milyondan çox nüfuzu olan ölkəmizdə sayı o qədər də çox olmayan şəhid ailələri, müharibə iştirakçıları, xüsusilə də qazilərimiz qədirbilən, xeyirxah vətəndaşlarımız tərəfindən ən azı mənəvi dəstəklə əhatə olunsalar, onlara daim diqqət, qayğı göstərilərsə, bu, həm qazilərimiz, həm onların valideynləri, həm də oddan-alovdan keçmiş igid oğullarımızı özlərinə örnək bilən gənclərimizi daha da ruhlandırar.

Sonda onu demək istəyirəm ki, bəstəkar və şairlərimizin yaradıcılığında qazilər haqqında mövzulara kifayət qədər rast gəlinmir. Doğrudur, meyxanaçılar, qeyri-peşəkarlar onların şəninə bir çox nümunələr ortaya qoyublar. Lakin onların layiq olduqları yüksək əxlaqi və iradi keyfiyyətlərə malik qazi obrazını biz ədəbiyyat və incəsənət xadimlərimizdən gözləyirik.

Bu günlərdə qazilərimizə və bütün xalqımıza təqdim edəcəyimiz "Qazilər haqqında ballada"da (musiqisi Azad Zahidin, sözləri Abdulla Qurbaninindir. İfa edir Cahangir Qurbanov və xor) səslənən bir neçə misra ilə fikir və düşüncələrimi tamamlayıram:

Dərə keçib, dağ aşıb,
Yağılarla savaşıb,
Savaş qeyrət savaşı,
Yol verin, qazi gəlir!
Xətrinə dəysən əyər,
Yaraları göynəyər.
Hərdən coşar, kükrəyər,
Yol verin, qazi gəlir!
Şirin dillə dindirin,
Qəlbini sevindirin,
Bir azca ovundurun,
Yol verin, qazi gəlir!
Qəlpə var sinəsində,
Atəş var nəfəsində,
Qarabağ cəbhəsindən
Gələnlərə yol verin!..

# Hərbi mətbuat da "Əkinçi"nin varisidir

"Əkinçi" ilə başlayan milli mətbuatımız müvafiq inkişaf mərhələləri keçdi, bu inkişaf sosial həyatın bütün sahələrini əhatə etməklə təqdir olunası mətbu mədəniyyət ənənələri yaratdı.

Azərbaycanda hərbi mətbuat da "Əkinçi"nin işığında yaranıb, onun amalının davamçısı olub. Nəşrə "Xalq Ordusu" kimi başlayan "Azərbaycan Ordusu" qəzeti də, az sonra nəşr edilən "Hərbi Bilik" jurnalı da belə dövri nəşrlərdən olub. İlk sayı 1992-ci il fevralın 11-də nəşr edilən "Xalq Ordusu" qəzeti Azərbaycanda ordu quruculuğu prosesində yaxından iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti istər Birinci Qarabağ müharibəsində, istərsə atəşkəs dövründə, istərsə də Vətən müharibəsində əməliyyat şəraiti haqqında ictimaiyyətə gerçək operativ informasiyalar vermişdir.

"Azərbaycan Ordusu" qəzeti mətbu orqan kimi müəyyən inkişaf mərhələləri keçib, bütün mərhələlərdə dövlətə, dövlətçiliyə sədaqətin qəzeti olub, Azərbaycan zabitinin, əsgərinin düşüncələrinin sirdaşı olan qəzet kimi nəşr edilib...

"Hərbi Bilik" jurnalı 30-cu illərdə nəşr edilmiş eyniadlı nəşrin davamı kimi 1993-cü ilin yanvarından nəşrə başlayıb. Jurnalda, əsasən, nəzəri hərbi bilikləri əhatələyən məqalələr dərc olunub.

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin fəaliyyəti də mətbu mahiyyətli fəaliyyət olub. Belə ki, mərkəz bilavasitə ordu ilə ictimaiyyət arasında tele-ünsiyyət vasitəsi funksiyasını indi də uğurla yerinə yetirir...

"Hərbi Nəşriyyat" qəzetin, mərkəzin fəaliyyətini nəşr baxımından yaradıldığı vaxtlardan tamamlayır. Bu anlamda "Hərbi Nəşriyyat"ı da hərbi mətbuatın bir sahəsi hesab edə bilərik...

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ordumuz yarana-yarana formalaşırdı. "Xalq Ordusu" da bu formalaşma prosesinin mətbu iştirakçısı idi. Ordu yaranırdı, ordu elan edilmədən başlayan müharibə aparırdı. Belə bir şəraitdə Müdafiə Nazirliyinin mətbu orqanı olmaq etibarilə "Xalq Ordusu"nun ("Azərbaycan Ordusu"nun) söz tribunası da ordunun şəxsi heyətinin döyüş əzminin, Qələbə ruhunun yüksəldilməsində olduqca mühüm əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə mətbu sözün həmişə böyük təsiri olub. Qəzet bu amilə istinadən xalqımızın döyüş, müharibə tarixindən, bu anlamda tariximizdən məzmunlu məqalələr dərc edirdi.

"Xalq Ordusu" nəşrə başladığı ilk vaxtlardan etibarən döyüşən ordunun qəzeti oldu. Oxucular da döyüşçülər idi, əksər kənar

*"Əkinçi"nin meydana çıxması bir neçə cəhətdən əlamətdar idi. Azərbaycan jurnalistikası tarixində ilk dəfə olaraq Həsən bəy Zərdabi "Əkinçi"nin timsalında mətbuata kütləvi informasiya vasitəsi, maarifçiliyin əsası, ictimai-siyasi şüurun formalaşması faktı kimi yanaşdı.*

*"Əkinçi" özündən sonra bir sıra milli mətbu nümunələrin nəşrinin başlanğıcı oldu.*

müəlliflər də. Qəzet kabinet qəzeti olmadı, bölgələrdə, səngərlərdə döyüşənlərlə nəfəs-nəfəsə dayandı, əməkdaşlar səngərli anların istisini yazacağı sözün - məqalənin, reportajın, düşüncələrin istisinə hopdururdu.

"Xalq Ordusu" qəzeti fəaliyyətini 1992-ci ilin iyununda döyüş bölgəsində davam etdirdi, əməkdaşlar bunu qəzetçilik üçün, Azərbaycan mətbuatı üçün gərəkli məcraya yönəldə bildi. Mətbuat tariximizdə ilk dəfə səyyar qəzet nəşri edildi. Bu təcrübə Vətən müharibəsində bir qədər fərqli formatda təkrarlandı...

Qəzetdə dərc edilən müxtəlif janrlı məqalələr əsgərlərin döyüş əzmini, qələbə ruhunu yüksəldir ki, bu da mahiyyəti etibarilə mənəvi-psixoloji hazırlığa mətbu yardımçı olmaq idi. Keçirilən müxtəlif təyinatlı təlimlər haqqında istər informativ, istərsə də təhlili məqalələr şəxsi heyətin döyüş hazırlığının, döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlığının mətbu təbliğatçısı rolunu oynayır.

"Azərbaycan Ordusu" qəzetində "Ön xətdən reportaj", "Gənc zabitlərimiz", "Nümunəvi xidmət", "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır", "Milli Qəhrəmanlarımız", "Ordu və cəmiyyət", "Fiziki hazırlıq", "Sıra hazırlığı", "Könlüm şeir istəyir", "Redaksiyamızın qonağı" və s. rubrikalarla dərc edilən məqalələri oxucular maraqla qarşılayırlar.

Oxucular qəzet vasitəsilə Prezident, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindən əvvəl ictimaiyyətə ünvanladığı qələbə ruhlu çıxışları, Vətən müharibəsində xalqa müraciətləri, ordu quruculuğu ilə bağlı müvafiq fərman və sərəncamları, Azərbaycan Ordusunun qalibiyyət paradı, dövlət başçısının, eləcə də Müdafiə Nazirliyi rəhbərliyinin ön xəttə səfərləri, Azərbaycan Ordusunun həyata keçirdiyi taktiki təlimlər, şəhidlərin döyüş yolu, qədimlərdən günümüzə qədər qəhrəmanlarımızdan, dahi şəxsiyyətlərimizdən, sərkərdələrimizdən, şair və yazıçılarımızdan, bir sözlə, şanlı tariximizdən, milli-əxlaqi dəyərlərimizdən materiallar dərc etməklə qəzet ordu ilə cəmiyyətin əlaqələrinin güclənməsini mətbu baxımdan təmin edib.

Qəzetdə, həmçinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsindən təqdim olunan ictimai-siyasi hazırlıq mövzuları da dərc edilib. Dərc olunan yazılar hərbi qulluqçuların yüksək şüurluğuna, vətənpərvərlik borclarını daha ətraflı dərk etmələrinə və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanıb. Keçirilən təlimlər, tədbirlər yüksək səviyyədə işıqlandırılıb. Ümumilikdə redaksiya təyinatı üzrə döyüş tapşırıqlarının yerinə yetirilməsinə daim hazır vəziyyətdə saxlanılıb.

"Hərbi Nəşriyyat" hüquqi bazasını Azərbaycan Respublikasının nəşriyyat işinin və kütləvi informasiya vasitələrinin qanunverici bazası ilə tənzimləyir və eyni zamanda, müdafiə nazirinin Azərbaycan Ordusunda nəşriyyatın fəaliyyətinin təşkili və tənzimlənməsi üzrə əmr, qərar və sərəncamlarına uyğun quraraq, xidməti nəşrlərin, dərslik və dərs vəsaitlərinin çap olunub, ordumuzun şəxsi heyətinə çatdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edir.

Vətən müharibəsində "Hərbi Nəşriyyat" da şərəfli xidmət yolu keçərək, ordumuzun qələbəsinə öz töhfəsini verdi. Döyüş əməliyyatları aparılan istiqamətlərdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının və ruh yüksəkliyinin daha da artırılmasında mühüm vasitələrdən biri olan səyyar mətbəələrin qurulması və gündəlik fəaliyyətinin təşkili, təbliğat-təşviqat məqsədilə hazırlanan bukletlərin, broşürlərin, bayraq fonu üzərində "Biz Zəfər çalacağıq", "Qarabağ Azərbaycandır!", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu" şüarlarının, "İrəli", "Şimşək" döyüş vərəqələrinin çap olunması, onların ön cəbhədəki əsgər və zabitlərə çatdırılması nəşriyyatın Vətən müharibəsində keçdiyi xidmət yolunun şərəfli tarixidir.

"Sənədli Filmlər Kino-Telestudiyası" kimi yaranmış Sənədli və Tədris Filmləri Mərkəzi istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində müharibə tariximizin xronikasını yaradıb, onun müharibənin ən qaynar nöqtələrindən canlı döyüş kadrlarının efirə verilməsində, telereportajların hazırlanmasında böyük xidmətləri olub. Mərkəzin əməkdaşlarının hazırladıqları verilişlər uzun illər gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində təbliğat proqramı kimi "AND" proqramı ilə efirə verilirdi. Bu, həm hərbi qulluqçuların, həm də gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsində əhəmiyyətli olurdu. Bu gün də Sənədli və Tədris Filmləri Mərkəzinin yüzlərlə sənədli və tədris filmləri, video süjet və reportajları, ordumuzun irimiqyaslı təlimləri, hərbi sahədə qazanılan bütün nailiyyətlər, keçirilən tədbirlər Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməklə ictimaiyyətə çatdırılır.

Vətən müharibəsi başlayan andan hərbi mətbuat da əsgərlərimizlə birlikdə üç istiqamətdə fəaliyyət göstərdi. İstər səyyar mətbəələrdə çap olunan qəzetlər, istərsə də döyüş əməliyyatlarında hazırlanan video süjetlər qələbə müjdəli xəbərlər gözləyən xalqımızı sevindirirdi. Vətən müharibəsi başa çatdıqdan sonra hərbi mətbuatın döyüşdə iştirak edən şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı və müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə həm medal, həm də fəxri fərmanlarla təltif olundu.

22 iyul Mətbuat Günüdür...

22 iyul Hərbi mətbuatın - Müdafiə Nazirliyi Mətbuat Xidmətinin, "Azərbaycan Ordusu" qəzeti redaksiyasının, "Hərbi Nəşriyyat"ın, "Hərbi Bilik"in, "Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi"nin əməkdaşlarının da bayramıdır...

**Kapitan**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Mövlud Çavuşoğlu: Dünya ictimaiyyəti Türkiyənin heç vaxt mülki əhaliyə hücum etmədiyini yaxşı bilir



Türkiyə Silahlı Qüvvələri tərəfindən İraqın Dohuk vilayətində mülki əhaliyə qarşı heç bir hücum həyata keçirilməyib. Bununla bağlı Türkiyəyə qarşı əsassız iddiaları qətiyyətlə rədd edirik. Türkiyənin hədəfi terrorçu qruplaşmalardır. Dünya ictimaiyyəti Türkiyənin heç vaxt mülki əhaliyə qarşı hücum etmədiyini yaxşı bilir.

Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "TRT HABER" telekanalının canlı yayımında ifadə edib.

Xatırladaq ki, iyulun 20-də İraqın Dohuk vilayətinin Zaho rayonu ərazisində terror birliklərinin atəşi nəticəsində 8 nəfər ölüb, 23 nəfər yaralanıb. Hadisə barədə məlumat yayılan ilk anlardan Türkiyə rəsmiləri bu qanlı hadisə ilə bağlı əsassız iddiaları qəti şəkildə rədd edib.

Mövlud Çavuşoğlu deyib ki, bu xain hücumun terror təşkilatları tərəfindən həyata keçirildiyi ehtimal olunur.

## Lloyd Ostin: 30-dan çox ölkə Ukraynaya silah və texnika tədarük edir



Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun (Ramştayn formatında) əvvəlki üç iclasının nəticələrinə görə, 30-dan çox ölkə Ukraynaya silah və texnika tədarük edir, bundan əlavə, daim yeni təşəbbüslər irəli sürülür.

"Ukrinform" xəbər verir ki, bunu "Ramştayn-4" görüşünün videoformatda keçirilən iclasının açılışında ABŞ-ın müdafiə naziri Lloyd Ostin deyib.

"Bir ay əvvəl bu qrup Ukraynanı qorumaq öhdəliyimizi bir daha təsdiqləmək üçün Brüsseldə üzbəüz görüş keçirdi və biz bir çox ölkədən yeni təşəbbüslərin elanlarını eşitdik. Bu günə qədər 30-dan çox ölkə Ukraynaya hərbi dəstək verib", - deyə Pentaqon rəhbəri bildirib.

O vurğulayıb ki, bu birgə səylər artıq yerlərdə vəziyyətin dəyişməsinə gətirib çıxarıb. Brüsseldəki görüşdən sonra təkcə ABŞ Ukraynaya müdafiə yardımı üçün 2,6 milyard dollardan çox vəsait ayırıb ki, bura digər silah və texnika ilə yanaşı, 12 HIMARS sistemi də daxildir. Bu da, Ukrayna Silahlı Qüvvələrinin atəş gücünü xeyli dərəcədə artırıb.

"Ukraynanın özünü müdafiə edə bilməsi üçün tarixi dəstək verməyə davam edəcəyik", - Ostin bildirib.

O, ABŞ Administrasiyasının Ukraynaya yeni müdafiə yardımı paketini açıqlayacağını təsdiqləyib və digər ölkələrin də fəal şəkildə qoşulduğunu qeyd edib.

## Aİ Şurası Rusiyaya qarşı yeddinci sanksiyalar paketini təsdiqləyib



Avropa İttifaqı Şurası Rusiyaya qarşı yeddinci sanksiyalar paketini təsdiqləyib. Yeni paketə Rusiya qızılının idxalına məhdudiyyətlər, 55 fiziki və hüquqi şəxsin qara siyahıya salınması və ikili təyinatlı məhsulların siyahısının genişləndirilməsi daxildir.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen bu barədə özünün "Twitter" səhifəsində yazıb. Eyni qərarla Rusiya Federasiyasına qarşı bütün mövcud sanksiyalar 2023-cü il yanvar ayının sonuna qədər uzadılıb.

Yeni sanksiyalar paketi Avropa İttifaqının rəsmi jurnalında dərc edildikdən sonra qüvvəyə minəcək.

Xatırladaq ki, fevralın 24-də Rusiya Ukraynaya qarşı genişmiqyaslı müharibəyə başlayıb. Avropa İttifaqı, Kanada, ABŞ, Böyük Britaniya və dünyanın bir çox digər ölkələribuna cavab olaraq Rusiyaya qarşı analoqu olmayan sanksiyalar tətbiq edib. Sanksiyaların siyahısı getdikcə genişlənir.

**AZƏRTAC-ın materialları əsasında**

## Gənc zabitlərimiz

# “Ordumuz ərazi bütövlüyümüzü qorumağa qadirdir”

***Ordumuz artıq 104 illiyini qeyd etdi. Ötən tarixə nəzər saldıqda Səməd bəy Mehmandarov, Əlağa Şixlinski, Cəmşid xan Naxçıvanski, Həzi Aslanov və digər generallarımızın hərb tarixinə adlarını qızıl hərflərlə yazdırdıqlarını, Azərbaycanın adını, hərb gücünü dünyaya göstərdiklərini görürük.***



2020-ci il sentyabrın 27-də Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmri ilə Ermənistan ordusunun təxribatlarına cavab olaraq Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Şanlı ordumuzun sıralarında igid zabit və gizirlər, mərd əsgərlər düşmənin üzərinə atıldı, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşdular. Haqq savaşımızda iştirak edən məğrur övladlarımızı tanımaq və tanıtmaq məqsədilə şəxsi heyətlə tanışlığımız davam edir. "N" hərbi hissəsində Vətən müharibəsi iştirakçısı baş leytenant Elsevər Şirəlizadə ilə tanış olduq.

O, 1994-cü il martın 16-da Şəki rayonunda anadan olub. Orta təhsilini başa vurduqdan sonra zabit olmaq arzusunun ardınca gedərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. 2012-ci ildə liseyi bitirərək, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunur. Artilleriya ixtisası üzrə təhsilini başa vuran Elsevər 2016-cı ildə artıq gənc zabit kimi xidmətə yollanır.

"Hələ uşaq olanda arzulayırdım ki, böyüyüb Vətən müdafiəçisi olum. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmaqla arzuma çatdım. Təhsil ocağında komandir və müəllimlərimiz bizə gələcəkdə nizam-intizamlı, vətənpərvər bir zabit olmağı öyrədirdilər. Düzgün peşəni seçdiyimdən əmin idim. Orada təhsil aldığım müddətdə dərslərimdə fəal iştirak edir, səylə çalışırdım. Öyrəndiyim bilik və bacarıqlar mənim üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin qapılarını açdı. Çalışqanlığımı və məsuliyyətimi artıraraq, ümumi hərbi biliklərimi təkmilləşdirərək, artilleriya ixtisasına yiyələndim. Savadlı müəllimlərimiz bizə artilleriyanın bütün sirlərini öyrədir, peşəkar kadrlar kimi formalaşmağımızda bütün biliklərini səfərbər edirdilər. Nəhayət, uşaqlıqdan mənimlə böyüyən arzuma çatdım. Leytenant hərbi rütbəsində xidmət etməyə başladım", - deyə gənc zabit bildirdi.

Hal-hazırda artilleriya divizionunda xidmətini davam edən zabit Elsevər Şirəlizadə Vətən müharibəsindən də söz açdı. "44 günlük Vətən müharibəsi bizə sonsuz sevinc və xoşbəxtlik bəxş etməklə yanaşı, həm də bu hissləri xalqımıza yaşatmağın qürurunu keçirtmək imkanı yaratdı. Bütün dünya azərbaycanlıları üçün bundan sevindirici heçnə ola bilməzdi. Mən də hərbi qulluqçu kimi çox qürurlanıram. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz düşməni əzəli torpaqlarımızdan qovdu. Dünya hərb tarixinə yeni səhifə yazan Azərbaycan Ordusunun sıralarında olmaq hər birimiz üçün böyük fəxrdir", - deyərək zabit sözünü bitirdi.

Torpaqlarımızın işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini layiqincə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə baş leytenant Elsevər Şirəlizadə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Gənc zabitimizlə tanışlıq bizdə xoş təəssüratlar yaratdı. Vətənin keşiyində durmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Baş leytenant Elsevər Şirəlizadə bunu ancaq borc kimi deyil, həm də Vətəninə və millətinə sevgisinin bariz nümunəsi kimi qəbul edir. Doğrudan da, şanlı ordumuzun hər bir hərbi qulluqçusu canı bahasına da olsa, ölkəmizin müdafiəsində mərdcəsinə dayanır. Əminliklə deyirik ki, Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü belə hərbi qulluqçular - ordumuz göz bəbəyi kimi qoruyacaq. “Ordumuz ərazi bütövlüyümüzü qorumağa qadirdir”, - baş leytenant Elsevər Şirəlizadə belə dedi...

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

## Krossvord, skanvord, çaynvord, kriptoqram




1. Bölmələrin taktiki fəaliyyətlərinin əsas növlərindən biri.
2. Sığınacaq, qala və s. divarlarında atışma üçün qoyulan deşik.
3. Hərbi hissənin (birləşmənin) birbaşa ştatında olan və hərbi qulluqçulara tibbi yardımın və stasionar müalicənin göstərilməsi üçün fəaliyyət göstərən tibb müəssisəsi.
4. İkitərəfli və ya birtərəfli siperi olan ensiz, uzun və dərin xəndək, səngər.
5. Azərbaycan snayperi.
6. Bölmələrə nəzarət etmək və onları operativ şəkildə idarə etmək üçün yaradılmış hərbi təşkilat, məntəqə.
7. Topa, minaatanlara, texnikalara və s. qulluq edən hərbi qulluqçulardan ibarət qrup.
8. Etibarlı zirehi və yüksək manevrli, 3 nəfər heyəti olan tırtıllı döyüş maşını.
9. Silahın lüləsinin, mərmi və ya güllənin diametrinin ölçüsü, çapı.
10. Yanacağının yanması nəticəsində əmələ gələn reaktiv qüvvənin təsiri altında hərəkət edən uçuş aparatı.
11. Gəminin, təyyarənin bortuna girmək və ordan düşmək üçün istifadə olunan müxtəlif növlü və quruluşlu pilləkən, nərdivan.
12. Hərbi təlim, habelə müxtəlif silahların sınaqdan keçirilməsi üçün böyük sahə, ərazi.
13. Xüsusi tapşırıq üzrə hərbi xidmətçinin gördüyü iş, növbətçilik, yerinə yetirdiyi tapşırıq və belə tapşırığı yerinə yetirən hərbi xidmətçi dəstəsi.
14. Silahın (tüfəngin və s.-nin) sandığına keçirilən patronları yan-yana qoymaq üçün qab, qutu.
15. Dəri, rezin və s. materialdan hazırlanan tapança və ya tüfəng üçün qab.
16. Müxtəlif obyektlərin (hədəflərin) radiotexniki metodlarla izlənməsini, aşkarlanmasını, koordinatlarının təyin edilməsini və digər məlumatların əldə olunmasını öyrənən elm və texnika sahəsi.
17. Qoşun növlərindən biri.
18. Bir çox ölkələrin müxtəlif növ silahlı qüvvələrinin qoşun növlərində əsas taktiki və inzibati təsərrüfat vahidi, hərbi hissə.

**Tərtib etdi: çavuş Rəşad ƏMRAHOV**

# İdman

## UEFA Çempionlar Liqası: Ağdamın “Qarabağ” klubu Bakıda İsveçrənin “Sürix” komandasına qalib gəlib



Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasında növbəti qələbəsini qazanıb.

Turnirin ikinci təsnifat mərhələsinin ilk oyunları çərçivəsində Ağdam təmsilçisi İsveçrənin "Sürix" komandasını qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan matç Azərbaycan çempionu "Qarabağ"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

"Qarabağ" birinci təsnifat mərhələsində Polşanın "Lex" komandasını iki oyunun nəticəsinə əsasən mübarizədən kənarlaşdırıb - 0:1; 5:1.

Cavab oyunu iyulun 27-də İsveçrədə keçiriləcək.

## Yunan-Roma güləşi üzrə Azərbaycan millisi U-15 Avropa çempionatının qalibi olub



Xorvatiyanın paytaxtı Zaqrebdə 15 yaşadək güləşçilər arasında Avropa çempionatına yekun vurulub.

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi tarixi uğura imza atıb.

Millimizin 12 üzvü fəxri kürsüyə qalxıb. Əli Sucayev (38 kq), Turan Daşdəmirov (41 kq), Yusif Əhmədli (57 kq) və Emil Abdullayev (62 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olublar. Səyyad Nağızadə (48 kq), Ayxan Cavadov (52 kq) və Orxan Hacıyev (75 kq) ikinci, Əli Nəzərov (41 kq), Əmrah Əmrahov (44 kq), Cavad Məmmədov (62 kq), Elnur Hüseynov (68 kq) və Mikayıl İsmayılov (85 kq) isə üçüncü yeri tutublar.

Dörd qızıl, 3 gümüş və 5 bürünc medal qazanan yığmamız 205 xalla komanda hesabında Avropa çempionu olub. Azərbaycan ikinci pillədə qərarlaşan Türkiyəni 76 xal qabaqlayıb. Ukrayna isə 123 xalla üçüncü yeri tutub. Milli medalların keyfiyyətinə və kəmiyyətinə görə də bütün rəqiblərini qabaqlayıb.

Qeyd edək ki, Zaqrebdə qazanılan nəticə U-15 Avropa çempionatlarında Azərbaycan yunan-Roma güləşi adına həm medalların sayına, həm əyarına, həm də komanda hesabında toplanan xallara görə rekord göstəricidir.

## Anna Başta qılıncoynatma üzrə dünya çempionatının gümüş medalına sahib olub



Misirin paytaxtı Qahirədə keçirilən qılıncoynatma üzrə dünya çempionatında qadın sablyaçıların şəxsi yarışında qaliblər müəyyənləşiblər.

Mübarizəyə əsas mərhələdən başlayan milli komandamızın lideri Anna Başta ilk görüşündə Dominikan idmançısı Valentin Heyddisə 15:9 hesabı ilə qalib gələrək onaltıdabir finala yüksəlib. Bu mərhələdə kanadalı Medison Zurqudu 15:8 hesabı ilə məğlub edən Azərbaycan qılıncoynadanı səkkizdəbir finalda İtaliya sablyaçısı Martina Kriskioyanı mübarizədən kənarlaşdırıb - 15:6.

Dünya reytinqinin 1 nömrəsi olan qadın sablyaçımız dörddəbir finalda yunan Teodora Qkountouranı 15:11 hesabı ilə məğlubiyyətə uğradıb. Yarımfinalda Annanın rəqibi digər yunan sablyaçısı Despina Georgiadou olub. Rəqibi üzərində 15:9 hesablı qələbə qazanan sablyaçımız həlledici görüşdə Yaponiya idmançısı Emura Misaki ilə qarşılaşıb. Rəqibinə 10:15 hesabı ilə uduzan sablyaçımız dünya çempionatının gümüş medalını qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

Miçman Əmənov Rauf Ağagül oğluna məxsus SQ № 0010777 nömrəli və miçman Nərimanov Türkay Nəriman oğluna məxsus SQ № 0016950 nömrəli gizirin (miçmanın) şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 754
Nüsxə 4647